# Qisməti müqəddəs şəhidlik oldu

**"- Kimdi o qisməti şəhidlik payı olan?!**
**- Azərbaycanın Milli Qəhrəmanı Sərdar Mədət oğlu Səfərov!**
**- Hə, tanıdım, atası Mədət, əmisi Əli Səfərov qardaşları da 1941-1945-ci illər müharibəsində ağır döyüşlərdən çıxıb evə salamat qayıtmışdı, sovet hökuməti də sinələrini doldurmuşdu orden-medallarla..."**

Bu sətirlər 1991-ci ilin oktyabr ayında Kəlbəcər dərd dəryasında boğulanda yazılıb. Guya şəhid bacılarına bir təsəlli vermək istəyirmişəm. Amma hardaydı o təsəlli. Sərdar kimi qardaş itirən bacılar təsəlli tapardılar ki?..

Əvvəllər tez-tez "dörd ilin" yaxasından tutub nifrinimizi tökərdik üstünə. Guya ki, ermənilər dörd ildir başımıza oyun açırlar. İllərin nə günahı? Axı qara libaslı bu illəri qaraya bükənlər var. Bu bəlaya düçar olan təkcə bugünkü deyil, nəsillərimizdir...

Həmin qara xəbəri Kəlbəcərə əsən yellərmi, o yerlərdən düşmən gülləsinin vəhşi səslərindən perik düşmüş quşlarmı yetirdi - dilləri-ağızları qurusun. Axı Sərdardan belə ağır xəbər gözləmirdik. Gəlmişdi ki, sərhədlərimizdə erməni quldurlarının payını versin, torpağımızı qorusun...

Uzun illərin ayrılığına dözməyən beş bacının göz yaşlarını silməyə bir qardaşı intizardan xilas etməyə gələrkən onlara dərdmi gətirirdi Sərdar?! Qardaşsızlıq dərdinə dözməyən Məhəmmədi, Pərini, Həqiqəti, Gülnazı, Səadəti, Arzunu qardaşsız qoymağamı tələsirdin, Sərdar?! Yoxsa Vətən uğrunda şəhidlik payın səni tələsdirdi dağlara?!

"Mübariz keşikdə" qəzetinin 29 oktyabr 1992-ci il tarixli sayında Sərdarın Milli Qəhrəman adına layiq görülməsi barədə Azərbaycan Prezidentinin fərmanı var. Orada deyilir: "Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdikləri şəxsi igidlik və şücaətə görə Azərbaycan Respublikasının daxili işlər orqanlarının əməkdaşlarından olan Səfərov Sərdar Mədət oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilsin (ölümündən sonra)..."

Qəzetin 2-ci səhifəsində Sərdar Mədət oğlu Səfərovun şəkli və olduqca kiçikhəcmli bir yazı da var. Nə yaşadı, nə uzun ömrü oldu ki, ətraflı da yazısı olsun...

Əziz xatirəsindən, bir də ölümündən 3 ay sonra dünyaya göz açan körpəsi - Sərdarədən başqa bir yadigarı qaldısa, o da qəhrəmanlığıdır.

Milis (polis) leytenantı Sərdar Mədət oğlu Səfərov 1960-cı il avqust ayının 12-də Kəlbəcər şəhərində anadan olub. 1977-ci ildə şəhər orta məktəbini bitirib. Sonra kolxozda işləyib (o zamanlar ali məktəblərə qəbul olmaq üçün hökmən təsərrüfatda işləməli və iş stajı ilə sənəd verməliydin). 1979-cu ildən 1981-ci ilədək əsgəri xidmətdə olub. Qayıtdıqdan sonra da Bakı Avtomobillər Zavodunda işə girib.

Arzusu milis işçisi olmaq idi. Bu arzunun qanadlarında da üz tutub Rusiyaya. İlk dəfə Tula vilayətinin Zaoksk şəhəri DİŞ-də milis nəfəri kimi fəaliyyətə başlayıb. İxtisas təhsilini davam etdirmək üçün Kaunas Xüsusi Orta Milis Məktəbinə göndərilib. 1987-ci ildə həmin məktəbi bitirib köhnə iş yerinə qayıdan Sərdar Səfərov orada milis sahə müvəkkili işləyib. 1991-ci ildə doğma Azərbaycana dönən Sərdar Qusar rayon DİŞ-ə sərəncam alıb. Orada da sahə müvəkkili kimi fəaliyyətini davam etdirib.

Bundan sonra Sərdar haqqında rəsmi dildə danışmaq günahdı. Gərək Gülnaz bacısını danışdıraydım ki, Sərdarın yazısını yaza biləydim. Erkən itirdiyi anasına əlim çatmadı. Amma gərək bacısı Pəri müəlliməni tapıb dərdləşəydik. Dərd bu deyil, odur ki, həm məzarı, həm də Kəlbəcər şəhərində adına verilən küçə 28 ildir ki, düşmən tapdağı altında məhv edilir...

1991-ci il sentyabr ayının 25-də Əsgəran rayonunun ərazisində erməni terrorçuları "QAZ-53" markalı sərnişin avtobusuna hücum etmişdilər. Hadisə yerinə gedən istintaq-əməliyyat qrupunun tərkibində Qarabağa könüllü ezam olunmuş Sərdar Səfərov da var idi. Hadisə yerindən qayıdarkən daşnak-quldur yuvasına çevrilən Xankəndi yaxınlığında həmin istintaq qrupunun getdiyi "UAZ" markalı avtomobil erməni silahlı quldur dəstəsi tərəfindən atəşə tutuldu. Qəhrəmanlıqla müqavimət göstərən Sərdar yeddi yerindən güllə yarası aldı. Amma düşmənə təslim olmaq istəməyən Sərdarın dözümlü olsa da, son nəfəsi doğmalarına çatmadı.



İstər şəhidlərimiz, istərsə də milli qəhrəmanlarımız xalqımız və dövlətimiz tərəfindən unudulmur. Azərbaycanın milli qəhrəmanları Fəxrəddin Musayevlə Sərdar Səfərovun xatirəsi Qusar şəhərində əbədiləşdirilib. Hər il Qusar əhalisi milli qəhrəmanlarının əziz xatirəsini yad edir, anım tədbiri keçirirlər. Sərdar Səfərov erməni quldurlarının hücumuna məruz qalarkən yoldaşlarını ölümün pəncəsindən xilas edib və qəhrəmancasına həlak olub. O, bu qeyri-bərabər döyüşdə xeyli daşnak ünsürlərini, saqqallı terrorçunu məhv edib.

Bugün isə deyirik: ruhun şad olsun, doğma yurdun işğaldan azad edilib. İndi behiştlik yerində rahat uyuya bilərsən.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 15 noyabr.- S.7.